Hazırda portalda ümumilikdə 20 elektron dərslik var. Artıq istifadəçilər VII sinif üzrə elektron dərslikləri də portaldan epub, oflayn və onlayn formatda yükləyə bilərlər. Bu günə qədər saytdan istifadə edənlərin ümumi sayı 16591, o cümlədən Bakı şəhəri üzrə 5199, Sumqayıt şəhəri üzrə 1275, Gəncə şəhəri üzrə 567 nəfərdir.

Aşağıdakı cədvəldə fənlər üzrə elektron dərsliklərin müxtəlif formatda yüklənmə statistikası əksini tapıb:

| S | Dərsliyin adı | E-pub | Oflayn | Onlayn | Cəmi |
|---|---|---|---|---|---|
| 1 | Biologiya 6-cı sinif | 450 | 472 | 1446 | 2368 |
| 2 | Azərbaycan dili 6-cı sinif | 535 | 565 | 1832 | 2932 |
| 3 | Fizika 6-cı sinif | 227 | 210 | 677 | 1114 |
| 4 | Coğrafiya 6-cı sinif | 169 | 227 | 660 | 1056 |
| 5 | Azərbaycan tarixi 6-cı sinif | 293 | 322 | 808 | 1423 |
| 6 | Ümumi tarix 6-cı sinif | 177 | 175 | 549 | 901 |
| 7 | Həyat bilgisi 6-cı sinif | 98 | 113 | 364 | 575 |
| 8 | İngilis dili 6-cı sinif | 309 | 379 | 1169 | 1857 |
| 9 | Riyaziyyat 6-cı sinif | 475 | 446 | 1506 | 2427 |
| 10 | İnformatika 6-cı sinif | 91 | 82 | 322 | 495 |
| 11 | İnformatika 7-ci sinif | 22 | 12 | 41 | 75 |
| 12 | Həyat bilgisi 7-ci sinif | 18 | 21 | 51 | 90 |
| 13 | Coğrafiya 7-ci sinif | 31 | 43 | 89 | 163 |
| 14 | Biologiya 7-ci sinif | 24 | 21 | 98 | 143 |
| 15 | Fizika 7-ci sinif | 22 | 29 | 87 | 138 |
| 16 | Riyaziyyat 7-ci sinif | 47 | 76 | 163 | 286 |
| 17 | Ədəbiyyat 7-ci sinif | 13 | 13 | 83 | 109 |
| 18 | Azərbaycan dili 7-ci sinif | 29 | 28 | 111 | 168 |
| 19 | Kimya 7-ci sinif | 15 | 24 | 106 | 145 |
| 20 | Azərbaycan tarixi 7-ci sinif | 15 | 31 | 80 | 126 |

Cədvələ əsasən, daha çox VI sinif üzrə Azərbaycan dili (2932), riyaziyyat (2427), biologiya (2368) və ingilis dili (1857) dərsliklərindən istifadə olunub. 10242 nəfər (62 faiz) istifadəçi onlayn, 3289 nəfər (20 faiz) oflayn, 3060 nəfər isə (18 faiz) epub formatda elektron dərsliklərdən yararlanıb.

Qeyd edək ki, cari ilin sonuna qədər II və III siniflər üzrə ayrı-ayrılıqda 5 elektron dərslik də portalda yerləşdiriləcək.